DOI: 10.36719/AEM/2007-2020/53/98-103

**Mətləb Sahib oğlu Məmmədzadə**
Milli Aviasiya Akademiyası
matlabmammadzadeh@gmail.com

# QANUNİ SAHİBKARLIQ (KOMMERSİYA) FƏALİYYƏTİNƏ MANE OLMA CİNAYƏTİNDƏ VƏZİFƏLİ ŞƏXSLƏRİN ROLU

***Açar sözlər:*** *sahibkarlıq fəaliyyəti, vəzifəli şəxslər, iqtisadi fəaliyyət, qanuni sahibkarlıq*
***Key words:*** *entrepreneurial activity, officials, economic activity, legal entrepreneurship*
***Ключевые слова:*** *предпринимательская деятельность, чиновники, хозяйственная деятельность, легальное предпринимательство*

## Giriş

Şəxsiyyətin, onun hüquq va azadlıqlarının, eləcə də mülkiyyətinin cinayətkar qəsdlərdən qorunması Azərbaycan Respublikasında qüvvədə olan Cinayət Məcəlləsinin əsas vəzifələrindən biri kimi müəyyən edilmişdir. Müstəqillik dövründə yeni iqtisadi münasibətlərin yarandığı, inkişaf etdiyi bir şəraitdə iqtisadi fəaliyyət sahəsində yaranan (formalaşan) ictimai münasibətlərin kriminallaşması təhlükəsi reallığa çevrilmiş, mütəşəkkil cinayətkarlıq və korrupsiya inkişaf etmiş, cinayətkar elementlərin hakimiyyət orqanlarına daxil olmaq təhlükəsi yaranmışdır. Azərbaycan Respublikasının 1999-cu ildə qəbul edilən yeni Cinayət Məcəlləsində iqtisadi sahədə yaranan ictimai münasibətlər hüquqi cəhətdən dövlətin mühafizəsinə götürülmüşdür (24-cü fəsil, 190-213-cü maddələr). İqtisadi fəaliyyət sahəsində olan cinayətlərin məsuliyyətini müəyyən edən cinayət-hüquqi normaların müəyyən edilməsinin məqsədi dövlətin iqtisai siyasətinin həyata keçirilməsinin təmin edilməsindən ibarətdir.

Ölkəmizin cinayət qanunvericiliyində qanuni sahibkarlıq fəaliyyətinə mane olma maddəsi bazar iqtisadiyyatının mühüm prinsiplərindən olan təsərrüfat plüralizminin, sahibkarlıq azadlığının, təşkilati-hüquqi və mülkiyyət formasına fərq qoyulmadan ölkəmizdə olan hər bir sahibkarlıq fəaliyyəti subyektinin bərabərliyinin təminatlarından biridir.

Azərbaycan Respublikası Konstitusiyası hər kəsin azad sahibkarlıq fəaliyyətinə və ya qanunla qadağan edilməyən digər iqtisadi fəaliyyət növü ilə məşğul olmasına təminat verir [1, 20]. Mülki Məcəllənin məqsəd və vəzifələrindən biri də sahibkarlıq fəaliyyətini dəstəkləməkdir. Həmin məcəllənin prinsiplərindən biri mülki hüquq subyektlərinin iradə sərbəstliyi, başqa sözlə desək, mülki dövriyyə iştirakçılarının qanuni fəaliyyətinə hər hansı formada müdaxilə etmənin yolverilməzliyidir [2, maddə1].

Sahibkarlıq (kommersiya) fəaliyyəti ilə təşkilati-hüquqi və mülkiyyət formasına fərq qoyulmadan, sahibkarlıq fəaliyyətindən asılı olmayaraq sahibkarlıq fəaliyyətinin bütün iştirakçıları bərabər hüquqlardan istifadə edir və qanunla müəyyən edildiyi kimi, sahibkarlıq fəaliyyəti ilə həm fərdi sahibkar kimi, eləcə də hüquqi şəxs yaradaraq məşğul olmaq olar.

Sahibkarlıq (kommersiya) fəaliyyəti fiziki və ya hüquqi şəxsin müstəqil surətdə (sərbəst) həyata keçirdiyi, əsas məqsədinə əmlak istifadəsi, əmtəə satışı, işlər görülməsi və ya xidmətlər göstərilməsi ilə mənfəət (gəlir) götürülən fəaliyyətdir. Belə fəaliyyət əmlakın icarəyə verilməsi, əmtəələrin istehsalı və satışı, nəqliyyat, tibb, rabitə, turizm, auditor, məsləhət və s. xidmətlərin göstərilməsi, habelə qanunla qadağan edilməyən başqa fəaliyyət ilə ifadə oluna bilər [3, 45]

Sahibkarlıq fəaliyyəti sahibkarlığın ümumi prinsiplərini, sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və vəzifələrini, sahibkarın dövlət orqanları ilə qarşılıqlı münasibətlərini müəyyən edir. Mülkiyyətin ümumi formalarının bərabərliyi prinsipinin reallaşdırılması, müstəqil şəkildə fəaliyyət sahələrinin seçilməsi, iqtisadi qərarların qəbul olunması əsasında iqtisadi təşəbbüsün, işgüzarlığın geniş təzahürü üçün şərait təşkil edilməsi sahibkarlıq fəaliyyətini xarakterizə edən vacib cəhətlərdəndir. Sahibkarlıq fəaliyyəti, hüquqi və fiziki şəxslərin mənfəət və yaxud şəxsi gəlir (mənfəət) əldə olunması məqsədilə özlərinin əmlak məsuliyyəti və cavabdehliyi ilə va ya başqa hüquqi və yaxud fiziki şəxslərin adından qanunvericilikdə qadağan olunmayan təsərrüfat fəaliyyətinin növləri, həmçinin, məhsulun istehsalı, satışı, xidmətlər göstərilməsi formasında reallaşdırdıqları müstəqil təşəbbüskarlıq fəaliyyətidir. Sahibkarlıq ilə əlaqədar münasibətlər fəaliyyət növündən və sahəsindən, mülkiyyət formasından asılı olmayaraq beynəlxalq hüquqi öhdəliklər ilə tənzimlənir.

Sahibkarlığın subyektləri:

1. Azərbaycan Respublikasının fəaliyyət qabiliyyətli vətəndaşı;
2. mülkiyyət formasına fərq qoyulmadan hüquqi şəxslər;

3. xarici vətəndaş və yaxud vətəndaşlığı olmayan şəxs;
4. xarici hüquqi şəxslər.

Sahibkarlıq fəaliyyətiylə əlaqədar məsələlərin həllinə nəzarəti reallaşdıran dövlət orqanlarının mütəxəssislərinə və vəzifəli şəxslərinə sahibkarlıq fəaliyyətiylə məşğul olmaq qadağan edilmişdir. Sahibkarlığın qanun daxilində həyata keçirilən formalarına icazə verilir. Mülkiyyət və təşkilati-hüquqi formasına fərq qoyulmadan sahibkarlığın ümumi formaları bərabər hüquqa malikdir.

Sahibkarlığın iqtisadi bir fəaliyyət növü olaraq formalaşdırılmasında bir sıra şərtlərin olması tələb edilir. Fəaliyyətinin iqtisadi şərtlərinə ilk olaraq əmtəə təklifi, həmin əmtəələrin növləri, əmtəələrə olan tələb, pul vəsaitinin həcmi, işçi qüvvəsinin, iş yerlərinin çatışmazlığı və artıqlığı, işçilərin əmək haqqına təsir göstərən amillər və s. aid olunur. İqtisadi vəziyyətə gəlirlərin səviyyəsi, pul resurslarının həcmi, investisiyaya istiqamətləndirilən kapitalın ümumi həcmi, eləcə də işgüzar əməliyyatları maliyyələşdirmək məqsədilə istifadə olunacaq borc vəsaitinin məbləği əhəmiyyətli şəkildə təsir edir. Sahibkarlıq fəaliyyəti üçün mühüm olan iqtisadi şərtlərə müxtəlif təşkilati strukturlar aiddir. Onun köməyi ilə sahibkarlar kommersiya əməliyyatlarını gerçəkləşdirirlər. Bu strukturlara nümunə olaraq aşağıdakıları göstərə bilərik:

1. banklar - maliyyə xidmətini;
2. mal göndərənlər - materiallar, yarımfabrikatlar, xammal, yanacaq, enerji, avadanlıq, maşınlarla təchizatını;
3. pərakəndə və topdansatış ticarət strukturları - əmtəənin istehlakçıya çatdırılmasını;
4. ixtisaslaşdırılmış firmalar - mühasibat, hüquq, vasitəçilik xidmətlərini;
5. işə düzəltmə agentlikləri - işçi qüvvəsinə ehtiyacların təmin olunmasını;
6. agentliklər- nəqliyyat, sığorta, reklam, rabitə və informasiya xidmətlərini həyata keçirirlər.

Sahibkarlığın formalaşmasının sosial şərtləri ilk olaraq alıcının əmtəəni əldə etdikdə ona təsir göstərən (moda) dəb və zövqü ilə xarakterizə edilir. Bəzi mərhələlərdə bu ehtiyaclar dəyişə bilirlər. Bir çox hallarda mədəni və sosial mühitdən asılı şəkildə sahibkarlıq fəaliyyətində dini və mənəvi normalar əhəmiyyətli rol oynayırlar. Həmin normalar istehlakçıların həyatına, onun vasitəsi ilə əmtəəyə olan tələbə birbaşa təsir göstərir. Sosial şərtlər eyni zamanda başqa-başqa fərdlərin fəaliyyətlərinə, bu isə əmək haqqının ümumi həcminə, əmək şəraitinə təsir göstərir. Sahibkarlıq fəaliyyətiylə məşğul olan sahibkar işçilərinin sosial məsələlərinin həll edilməsində iştirak etməli, sağlamlığın mühafizə edilməsi, iş yerlərinin saxlanılmasını birmənalı şəkildə təmin etməlidir.

Sahibkarlıq fəaliyyətinin hüquqi anlayışı respublikamızda ilk dəfə "Sahibkarlıq fəaliyyəti haqqında" 1992-ci il 15 dekabr tarixli qanununun 1-ci maddəsində verilmişdir. Qanuna əsasən kommersiya fəaliyyəti (sahibkarlıq), fiziki şəxslərin, onların birliklərinin, habelə şəxsi gəlir və ya mənfəət əldə edilməsi məqsədilə özlərinin əmlak məsuliyyəti və cavabdehliyi ilə, yaxud başqa hüquqi və fiziki şəxslərin adından qanunvericilikdə qadağan olunmayan təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən xidmətlər göstərilməsi, məhsul istehsalı və satışı formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyətidir. Həmin fəaliyyətin məzmunu məhsullara, işlərə və xidmətlərə olan tələbatın müəyyən edilməsi, formalaşdırılması və işlərin görülməsi, xidmətlərin göstərilməsi və malların satışı yolu ilə onların təmin edilməsindən ibarətdir [4, maddə 1]

"Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə əsasən sahibkarlıq (kommersiya) fəaliyyətinin bəzi növləri yalnız lisenziya (xüsusi razılıq) əsasında həyata keçirilir. Lisenziya (xüsusi razılıq) ilə tənzimlənən fəaliyyət növlərinin siyahısı Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyənləşdirilir və Azərbaycan Respublika Nazirlər Kabineti tərəfindən isə lisenziya (xüsusi razılıq) verilməsi qaydaları təsdiq olunur [4, maddə 11].

İqtisadi sahədə dövlət orqanlarının vəzifəli şəxslərinin, habelə sahibkarların fəaliyyətinin qanuniliyi AR Konstitusiyası, qanunları və başqa qanunvericilik aktları vasitəsilə müəyyən edilmişdir. Həmin normativ aktlar iqtisadi sahədə vəzifəli şəxslərin səlahiyyətlərini, sahibkarlıq fəaliyyəti ilə məşğul olmanın əsaslarını və qaydasını, bu sahədə dövlət tənziminin formalarını və hədlərini müəyyən edir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "İqtisadi sahədə cinayətlər" adlanan doqquzuncu bölməsi "Mülkiyyət əleyhinə olan cinayətlər" (23-cü fəsil) və "İqtisadi fəaliyyət sahəsində olan cinayətlər" (24-cü fəsil) adlı iki fəsli əhatə edir. İqtisadi fəaliyyət sahəsində olan cinayətlər Azərbaycan Respublikası cinayət qanununda əhəmiyyətli yer tutur [5, 174]. Belə ki, bu qrupa daxil olan normalar maddi nemətlərin istehsalı, mübadiləsi, bölgüsü və istehlakı, eləcə də əmlak münasibətləri, habelə digər əlaqəli məsələlərlə bağlı ictimai münasibətləri tənzimləyir, onların cinayət-hüquqi mühafizəsini təmin edir. Qeyd etmək lazımdır ki, iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin obyektinin strukturu kifayət qədər mürəkkəbdir. Ona istehsal alət və vasitələrinə olan mülkiyyət münasibətləri, mülkiyyət kompleksinin idarə olunmasına, eləcə də müəssisələrin təsərrüfat fəaliyyəti ilə bağlı meydana çıxan müxtəlif məsələlərin həllini tənzimləyən ictimai münasibətlər

daxildir. Odur ki, iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin iqtisadiyyatın istənilən sahəsində törədilməsi mümkündür.

İqtisadi münasibətlərin strukturunda aparıcı rol mülkiyyət münasibətlərinə məxsusdur. Həmin münasibətlər müəyyən inkişaf mərhələsinə çatdıqda cinayətkarlığın xüsusi forması kimi təzahür edən iqtisadi fəaliyyət sahəsində olan cinayətlər meydana çıxır. Əhalinin ancaq bir təbəqəsinin mülkiyyət hüququna malik olduğu quldarlıq cəmiyyətində olan bazar münasibətləri şəraitində istehlak tələbatı çox da böylik deyildi və demək olar ki, bütünlüklə təmin olunurdu. Ayrı-ayrı məhsul növlərini istehsal edən sənətkarlar istehlakçıları tələb olunan mallarla təchiz etmək imkanına malik idi. Görünür iqtisadi fəaliyyət sahəsində cinayətkarlığın yaranması feodal cəmiyyətdə manufaktura istehsalının meydana gəldiyi inkişaf mərhələsinə təsadüf etmişdir. Belə ki, məhz bu zaman azad rəqabət inkişaf edir, satış bazarı genişlənir, mülkiyyətlə bağlı insanlar arasında münasibətlər dəyişir. İqtisadi münasibətlərin ayrı-ayrı insanların iradəsindən asılı olmamasını, obyektiv qanunlara tabe olmasını, bütünlükdə cəmiyyətin tələblərinə cavab verməsini nəzərdə tutan iqtisadiyyat kimi, sosial bir institutun əks fərdiləşmə prinsipinin pozulması iqtisadi münasibətlərin inkişafının obyektiv yox, subyektiv amillərə əsaslanmasına, yəni ayrı-ayrı şəxslərin iradə və hərəkətlərindən asılı olmasına şərait yaradır.

Vəzifəli şəxslər tərəfindən törədilən qanuni sahibkarlıq (kommersiya) fəaliyyətinə mane olma cinayəti ilk dəfə olaraq Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsində nəzərdə tutulmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan Respublikasının Konstitusiyası hər kəsin azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul olmasına təminat verir [1, 20].

Qanuni sahibkarlıq fəaliyyətinə mane olma (CM-nin 190-cı maddəsi). Kommersiya təşkilatının və ya fərdi sahibkarın qeydiyyatından qanunsuz olaraq imtina etmə və ya onları qeydiyyata almaqdan boyun qaçırma, müəyyən fəaliyyət növünü həyata keçirmək üçün lisenziyanın (xüsusi razılığın) verilməsindən qanunsuz olaraq imtina edilməsi və ya onun verilməsindən boyun qaçırma, mülkiyyət və ya təşkilati-hüquqi formasına fərq qoyulmadan kommersiya təşkilatının və ya fərdi sahibkarın hüquqlarını və ya qanuni maraqlarını məhdudlaşırma, habelə kommersiya təşkilatının və ya fərdi sahibkarın müstəqilliyini qanunsuz məhdudlaşdırma və ya onların fəaliyyətinə başqa cür qanunsuz müdaxilə etmə kimi əməllərin vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən sui-istifadə etməklə törədilməsi, Cinayət Məcəlləsinin 190.1-ci maddəsilə məsuliyyətə səbəb olur, iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır. [5, 174]

Qanuni sahibkarlıq fəaliyyətinə mane olma sahibkarlıq fəaliyyətini tənzimləyən qanun normalarının pozulması, azad sahibkarlıq fəaliyyətinə qəsd edilməsi deməkdir.

Cinayətin obyekti qanuni sahibkarlıq fəaliyyətinin normal həyata keçirilməsini və inkişafını təmin edən ictimai münasibətlərdir. Onun əlavə obyekti isə dövlət hakimiyyətinin, dövlət xidmətinin və yerli özünüidarə orqanlarında xidmətin maraqlarıdır.

Cinayətin obyektiv cəhəti Kommersiya təşkilatının və ya fərdi sahibkarın qeydiyyatından qanunsuz olaraq imtina etmə və ya onların qeydiyyatından boyun qaçırma, müəyyən fəaliyyət növünü həyata keçirmək üçün lisenziyanın (xüsusi razılığın) verilməsindən qanunsuz olaraq imtina etmə və ya onun verilməsindən boyan qaçırma, mülkiyyət və ya təşkilati-hüquqi formasına fərq qoyulmadan kommersiya təşkilatının və ya fərdi sahibkarın hüquqlarını və ya qanuni maraqlarını məhdudlaşdırma, habelə kommersiya təşkilatının və ya fərdi sahibkarın müstəqilliyini qanunsuz məhdudlaşdırma və ya onların fəaliyyətinə başqa cür qanunsuz müdaxilə etmə kimi əməllərlə səciyyələnir. [6, 37]

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 44-cü maddəsi ilə müəyyən edildiyi kimi hüquqi şəxslər, siyahısı qanunvericiliklə müəyyənləşdirilən ayrı-ayrı fəaliyyət növləri ilə yalnız xüsusi icazə (lisenziya) əsasında məşğul ola bilərlər. [2, maddə 44]

Xüsusi icazənin (lisenziyanın) verilmə qaydası müvafiq qanunvericilik aktı ilə müəyyən olunur. Qeyd edilən cinayət formal tərkiblidir. Müəyyən olunmuş əməllərdən hər hansı birinin törədildiyi andan başa çatmış hesab olunur.

Cinayət Məcəlləsinin 190.2-ci maddəsində qanuni sahibkarlıq fəaliyyətinə mane olmanın iki tövsifedici əlaməti nəzərdə tutulur:

1) eyni əməllər qanuni qüvvəyə minmiş məhkəmə qərarını pozmaqla törədildikdə: bu formal tərkibdir. Burada qanuni sahibkarlıq fəaliyyətinə təkrarən mane olmadan, yəni vəzifəli şəxsin hərəkətlərindən məhkəməyə şikayət verildikdən və məhkəmənin müvafiq qərarı ilə dövlət orqanının, yaxud yerli özünüidarə orqanının qərarları etibarsız hesab edildikdən sonra 190-cı maddədə göstərilən əməllərin təkrar törədilməsindən bəhs olunur;

2) eyni əməllər külli miqdarda ziyan vurmaqla törədildikdə: Külli miqdarda zərər vurulması real maddi zərərin vurulması, eləcə də buraxılmış mənfəətin, yəni sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən gözlənilən gəlirin

əldə olunmaması ilə ifadə oluna bilər: bu maddi tərkibli əməldir. Külli miqdarda zərərin müəyyən edilməsi üçün zərərçəkmiş sahibkarın maddi vəziyyətinin nəzərə alınması həlledici xarakter daşıyır.

Cinayət Məcəlləsinin 190.1-ci maddəsində nəzərdə tutulan əməllərin, eləcə də külli miqdarda ziyan vurmuş eyni əməllərin (190.2-ci maddə) subyekti fərdi sahibkarı və ya kommersiya təşkilatını qeydiyyata almaq, yaxud xüsusi icazə (lisenziya) vermək hüququna malik olan vəzifəli şəxs ola bilər.

Cinayət Məcəlləsinin 190.2-ci maddəsində nəzərdə tutulan formal tərkibli əməlin subyekti isə digər vəzifəli şəxs də ola bilər. Cinayətin subyektiv cəhəti birbaşa qəsdlə səciyyələnir.

Vəzifəli şəxs anlayışı Cinayət Məcəlləsinin 308-ci maddəsinin qeydində verilmişdir. Vəzifə səlahiyyətlərindən sui-istifadə (CM-in 308-ci maddəsi) və qanuni sahibkarlıq fəaliyyətinə mane olma (CM-in 190-cı maddəsi) ümumi və xüsusi norma kimi əlaqədədirlər. Odur ki, əməlin bu cinayətlərin məcmusu üzrə tövsif edilməsi yolverilməzdir.[5, 288]

Azərbaycan Respublikası Cinayət Məcəlləsində nəzərdə tutulmuş "vəzifəli şəxs" anlayışının şərh olunmasına dair Azərbaycan Respublikasi Konstitusiya Məhkəməsi Plenumunun Qərarı ilə "vəzifəli şəxs" anlayışını üç kateqoriyaya bölünür.

1. hakimiyyət nümayəndəsinin funksiyasını daimi və ya xüsusi səlahiyyət əsasında həyata keçirən şəxslər;

2. dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarında, habelə digər kommersiya və qeyri-kommersiya təşkilatlarında təşkilati-sərəncamverici funksiyaları yerinə yetirən şəxslər;

3. dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarında, habelə digər kommersiya və qeyri-kommersiya təşkilatlarında inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən şəxslər [7]

Qeyd etmək lazımdır ki, vəzifəli şəxslər tərəfindən törədilən cinayətlər əksər hallarda korrupsiya xarakterli olur. İqtisadi fəaliyyət sahəsində törədilən cinayətlər, o cümlədən də qanuni sahibkarlıq fəaliyyətinə mane olma cinayəti də belə əməllər sırasına aid edilə bilər. Belə ki, iqtisadi fəaliyyət subyektlərindən birinin maraqlarına uyğun olaraq digərinin qeydiyyata alınmaması, yaxud konkret fəaliyyət üçün xüsusi icazənin (lisenziyanın) verilməməsi və sair bu kimi əməllər müvafiq vəzifəli şəxslərin korrupsiyaya qoşulmasını təsdiq edən hal kimi qəbul edilməlidir.

Azərbaycan Respublikasının (AR) Cinayət Məcəlləsində iqtisadi sahədə olan cinayətlər bölməsinə aid olan qanuni sahibkarlıq fəaliyyətinə mane olma (CM maddə 190) cinayəti vəzifəli şəxslər tərəfindən korrupsiya, özbaşınalıq və süründürməçilik hallarının qarşısını almağa yönəlmiş cinayət tərkibində vəzifəli şəxslərin subyekt qismində nəzərdə tutulduğunu nəzərə alaraq bu cinayəti vəzifə cinayətlərinə də aid edə bilərik. Lakin bu əməl qəsd etdiyi obyektin mühümlüyünə görə təhlil edilən fəsilə daxil edilmişdir.

Qanuni sahibkarlıq (kommersiya) fəaliyyətinə mane olma cinayətinin obyekti müxtəlif subyektlərin iqtisadi fəaliyyətinin lisenziyalaşdırılması, dövlət qeydiyyatı, belə fəaliyyətə nəzarətin həyata keçirilməsi və bununla əlaqədar bir sıra başqa funksiyaların dövlət orqanları və vəzifəli şəxslər tərəfindən həyata keçirilməsi ilə bağlı yaranan ictimai münasibətlərdir. Cinayətin ictimai təhlükəliliyi səlahiyyətli dövlət orqanlarında işləyən vəzifəli şəxslərin müxtəlif qanunazidd hərəkət və ya hərəkətsizlik yolu ilə normal sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə maneələr yaradılmasından ibarətdir. Bunun nəticəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlər- fərdi sahibkar və ya hüquqi şəxs qanunla nəzərdə tutulmuş hüquqlarından tamamilə və ya qismən məhrum olur ki, bu da sahibkarın öz iqtisadi potensialından tam istifadə edə bilməsinə mane olur.

Qanuni sahibkarlıq fəaliyyətinə mane olma (CM-in 190-cı maddəsi) cinayəti obyektiv cəhətdən vəzifəli şəxslər tərəfindən törədilən, həmçinin hər biri ayrılıqda cinayət məsuliyyəti yaradan aşağıdakı alternativ əməllər ibarətdir:

1) kommersiya təşkilatının və ya fərdi sahibkarın qeydiyyatından qanunsuz imtina edilməsi və ya boyun qaçırması;

2) kommersiya təşkilatına və ya fərdi sahibkara müəyyən fəaliyyət növünü həyata keçirmək məqsdəilə lisenziyanın (xüsusi razılığın) verilməsindən qanunsuz olaraq imtina edilməsi və ya onun verilməsindən boyun qaçırması;

3) mülkiyyət və ya təşkilati-hüquqi formasına fərq qoyulmadan kommersiya təşkilatının və ya fərdi sahibkarın hüquqlarını və ya qanuni maraqlarının məhdudlaşdırılması, habelə kommersiya təşkilatının və ya fərdi sahibkarın müstəqilliyinin qanunsuz məhdudlaşdırılması və ya onların fəaliyyətinə başqa cür müdaxilə edilməsi. [5,175]

Bu əməllərin vəzifəli şəxslər tərəfindən öz qulluq mövqeyindən sui-istifadə etməklə törədilməsi AR Cinayət Məcəlləsinin 190.1-ci maddəsi ilə məsuliyyətinə cəlb edilərək bir ilə qədər müddətə islah işləri və ya iki min manatdan dörd min manata qədər miqdarda cərimə ilə cəzalandırılır.

Cinayət zərərçəkmiş şəxsin (kommersiya təşkilatının və ya fərdi sahibkarın) qanuni sahibkarlıq (kommersiya) fəaliyyəti ilə məşğul olmasına mane olan əməlin törədildiyi andan başa çatmış hesab edilir. Qanunda zərərli nəticələrin baş verməsi nəzərdə tutulmamışdır.

Cinayət Məcəlləsinin 190.1-ci maddəsində göstərilən əməllərin külli miqdarda (100,000 manatdan yuxarı olan məbləğ) ziyan vurmaqla törədildikdə həmin vəzifəli şəxslər Cinayət Məcəlləsinin 190.2-ci maddəsi ilə bu cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya iki ilədək müddətə islah işləri ilə cəzalandırılır.

Cinayət Məcəlləsinin 190.1-ci maddəsində qeyd olunan əməllərin, eləcə də eyni əməl nəticəsində külli miqdarda yəni 100,000 manatdan yuxarı olan məbləğdə ziyan vurmuş (190.2-ci maddə) subyekti, fərdi sahibkarı və ya kommersiya təşkilatını qeydiyyata almaq, yaxud xüsusi icazə (lisenziya) vermək hüququna malik olan vəzifəli şəxsin əməli subyektiv cəhətdən birbaşa qəsdlə səciyyələnir. [5, 175]

## Nəticə

İqtisadi fəaliyyət sahəsində törədilən cinayətlərlə mübarizənin problemli cəhətlərindən biri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin bəzi normalarının qüsurlu olmasıdır. Buna misal olaraq göstərmək olar ki, Cinayət Məcəlləsinin 190-cı maddəsi (Qanuni sahibkarlıq fəaliyyətinə mane olma) öz qulluq mövqeyindən sui-istifadə edən vəzifəli şəxsin kommersiya təşkilatının və ya fərdi sahibkarın qeydiyyatından qanunsuz olaraq imtina etməsinə və ya onların qeydiyyatından qanunsuz boyun qaçırmasına, müəyyən fəaliyyət növünü həyata keçirmək üçün lisenziyanın (xüsusi razılığın) verilməsindən boyun qaçırmasına, mülkiyyət və ya təşkilati-hüquqi formasına fərq qoyulmadan kommersiya təşkilatının və ya fərdi sahibkarın hüquqlarını və ya qanuni maraqlarını məhdudlaşdırmasına, habelə kommersiya təşkilatının və ya fərdi sahibkarın müstəqilliyini qanunsuz olaraq məhdudlaşdırmasına və ya onların fəaliyyətinə başqa cür qanunsuz müdaxil etməsinə görə məsuliyyətini müəyyən edir.

Zənnimizcə həmin maddənin dispozisiyasında "kommersiya təşkilatının" sözlərinin işlədilməsi müəyyən vəzifəli şəxslərin məsuliyyətdən kənarda qalmasına şərait yaradır və qanuni sahibkarlıq fəaliyyəti qarşısında maneələr yaradılmasına imkan verir. Belə ki, kommersiya təşkilatları ilə yanaşı, qeyri-kommersiya hüquqi şəxsləri (ictimai birliklər və fondlar) də sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququna malikdirlər [2, maddə 43]. Maddənin dispozisiyasında "kommersiya təşkilatının" sözlərinin işlədilməsi qeyri-kommersiya hüquqi şəxslərin sahibkarlıq fəaliyyətinə maneə törədən vəzifəli şəxslərin məsuliyyətindən yayınmasına imkan verir. Dispozisiyada "təşkilat-hüquqi və ya mülkiyyət formasından asılı olmayaraq" sözlərinin işlədilməsi də lüzumsuzdur. Belə ki, həmin sözlərdən sonra cinayətin subyektləri dispozisiyada sadalanır və odur ki, əlavə izaha, yaxud dəqiqləşdirməyə zərurət qalmır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası, Hüquq yayın evi-2019, 63 səh.
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. http://www.e-qanun.az/code/8
3. Aslanov S.X.. Sahibkarlıq hüququ, Bakı, Digesta, 2013, 560 s.
4. "Sahibkarlıq fəaliyyəti haqqında" 1992-ci il 15 dekabr tarixli qanunu. http://www.e-qanun.az/ framework/7920
5. Azərbaycan Respublikası Cinayət Məcəlləsi. Hüquq yayın evi. Bakı -2019, 737 səh.
6. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası, CM-in 190-353-cü maddələrinin şərhi. Hüquq yayın evi 2018. 799 səh.
7. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı, "Vəzifəli şəxs" anlayışının şərhi. http://www.e-qanun.az/framework/26312

## The role of officials in the crime of obstruction of legitimate entrepreneurial (commercial) activity

## Summary

This article, which is new to the criminal law of our country, is one of the important principles of a market economy, economic pluralism, freedom of entrepreneurship, equality of all business entities, regardless of ownership and organizational and legal form. This crime can be classified as an official crime, as the interpreted crime, which is aimed at protecting legitimate entrepreneurial activity from corruption, procrastination, and arbitrariness that may be committed by officials, involves an official as a subject.

The public danger of the described crime is that the officials of the competent state bodies obstruct the normal business activities by economic entities through various illegal actions and inactions. As a result, individual entrepreneurs and legal entities are not able to use their full potential. That is, he is completely or partially deprived of the rights provided by law.

The crime described is a formal crime. The crime ends from the moment of committing an act that prevents the victim from engaging in lawful entrepreneurial activity.

**Роль чиновников в воспрепятствовании законной предпринимательской (коммерческой) деятельности**

**Резюме**

Эта статья, которая является новой для уголовного права нашей страны, является одним из важных принципов рыночной экономики, экономического плюрализма, свободы предпринимательства, равенства всех субъектов предпринимательства, независимо от форм собственности и организационно-правовой формы. Это преступление может быть классифицировано как официальное преступление, так как в толкованном преступлении, которое направлено на защиту законной предпринимательской деятельности от коррупции, проволочек и произвола, которые могут совершать должностные лица, в качестве субъекта используется должностное лицо.

Общественная опасность объясненного преступления заключается в том, что должностные лица компетентных государственных органов создают препятствия для осуществления хозяйствующими субъектами нормальной предпринимательской деятельности посредством различных незаконных действий и бездействий. В результате индивидуальные предприниматели и юридические лица не могут в полной мере использовать свой потенциал. То есть он полностью или частично лишен прав, предусмотренных законом.

Описанное преступление является формальным преступлением. Преступление заканчивается с момента совершения деяния, которое не позволяет жертве заниматься законной предпринимательской деятельностью.

**Rəyçi: dos.S.Qasımov**

Göndərilib: 25.04.2020 Qəbul edilib: 27.04.2020